**Əlavə 2.**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**
**“ 31 ” oktyabr 2022-ci il tarixli**
**F-362 №-li əmri ilə təsdiq edilmişdir.**

**“Zəfər” məktəblilərarası 1-ci tarix olimpiadasının**

**keçirilməsi üzrə təlimat**

## 1. Olimpiadanın məqsədi

27 sentyabr 2020-ci il tarixdən başlayan və 44 gün davam edən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. 8 noyabr 2020-ci il Qarabağa yenidən qovuşduğumuz tarixdir. Bu, Böyük Qələbə Günüdür! Şanlı tariximizi taclandıran Zəfər Günüdür!

Müasir gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək, Azərbaycan tarixini hərtərəfli öyrətmək, milli-mənəvi dəyərlərimizə, ənənələrimizə sadiq gənclər yetişdirmək qarşımızda duran ən başlıca məsələlərdəndir. Bu baxımdan ümumtəhsil məktəblərinin şagirdləri arasında həyata keçirilməsi nəzərdə tutulan “Zəfər” məktəblilərarası tarix olimpiadası xüsusi əhəmiyyətə malikdir.

## 2. Olimpiadanın iştirakçıları

Olimpiadada Bakı şəhəri ümumtəhsil məktəblərinin VIII-X sinif şagirdləri iştirak edir.

## 3. Olimpiadanın ilk (məktəb) mərhələsi

- Olimpiadanın ilk turu məktəblər tərəfindən təşkil olunacaqdır.
- Olimpiada bütün məktəblərdə eyni saatda - 11:00-da başlayıb 1 saat davam etməli və eyni saatda – 12:00-da bitməlidir.
- İmtahan bitdikdən sonra şagirdlərin cavabları toplanaraq məktəb rəhbərliyinin təyin etdiyi məsul şəxslər tərəfindən sistemə yüklənilməli, eyni gün də ils.layiheler@baku.edu.gov.az ünvanına göndərilməlidir. Həmin məlumatlar BŞTİ tərəfindən məktəblərə göndəriləcəkdir.

## 4. Olimpiadanın ikinci (şəhər) mərhələsi

İkinci (şəhər) mərhələsində ilk turu uğurla keçən şagirdlər iştirak edəcək və Olimpiadanın Təşkilat Komitəsi tərəfindən müəyyən edilmiş qaydada mərkəzləşdirilmiş şəkildə həyata keçiriləcəkdir. İlk turda olduğu kimi şəhər mərhələsində də 25 sualdan ibarət test toplusunun həll edilməsi üçün 1 saat vaxt ayrılacaqdır. Olimpiadanın nəticələrinə əsasən yüksək nəticə əldə etmiş şagirdlər diplom, medal və hədiyyələrlə təltif ediləcəkdir.

## 5. Olimpiadanın üçüncü (final) mərhələsi

Olimpiadanın yekununda qalib şagirdlərdən ibarət komandalar yaradılaraq (püşkatma ilə) breyn-rinq təşkil olunacaqdır. Oyunun nəticəsində ilk 3 yerin qalibi olan komanda əlavə olaraq bir daha təltif ediləcəkdir.